Ədalət.- 2023.- 9 iyun. S. 6.

# ŞEİRDƏN GETMƏDİ, ŞEİRƏ QAYITDI



VAQİF YUSİFLİ

**Anar Seyidağa - Lənkəranda, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun doğulduğu kənddə (indi qəsəbədir) dünyaya gəlib. O kənd böyük qəhrəmanın ölməzliyini, ruhunu yaşadır. Təbiəti ilə gözəlliklər yaradan, havasından, suyundan, torpağından çiçəklər gülümsəyən bir qəsəbədir Gərmətük. Anar Seyidağa oğlu Həsənli bu kənddə orta məktəb bitirib, sonra Bakıda -Azərbaycan İqtisad institutunda təhsil alıb. Onun şeirə-sözə tapınmağı, dünyaya ürəyinin gözləriylə boylanmağı özünün dediyinə görə on-on iki yaşlarından başlayıb.**

Tələbə ikən Bakıdakı şeir mühiti, poeziya həvəsli yaşıdları ilə oturub-durmağı, təzə çıxan şeir kitablarını oxumağı ondakı həvəsi, şövqü daha da alovlandırıb. Amsma cəsarət eləməyib redaksiyaların qapısını döyməyə, "axı, mən şairəm" deməyə. Amma tələbəlik illərinin sadiq dostu-Ramiz bir gün onun şeirlərini Əlibala Hacızadəyə təqdim edib. Əlibala müəllim onun şeirlərini oxuyub -"!bu ki, şairdir, od var bu oğlanın içində, bu odu söndürmək olmaz" deyib. Bundan sonra Anar Seyidağa ilk şeir kitabını çap etdirib- "AllaDh, bir yol göstər"(1995-cidə). Sonra ikinci kitabı = "Heyif bu sevgidən" işıq üzü görüb (1997=ci ildə. Amma bu iki şeir kitabından sonra Anar az qala iyirmi il şeirdən uzaqlaşıb.

Mənim dostum, mərhum deməyə dilim gəlmədiyi Səyavuş Sərxanlının bir şeiri var-"Şeirdən getmə". Bu şeirin yazılma tarixini Səyavuş mənə danışıb-bir şair dostu varmış, o, kimlərdənsə acıq eləyib ya şeir yollarında çətinliklərlə üzləşib, ona görə qət edib ki, daha mənlik deyil bu yolun yolçusu olmaq. Səyavuş da ona bu şeiri həsr edimb, istedadlı bir şairin şeirdən getməsini istəməyib. Görün, nə yazıb:

*Fələyin başında qırmanclarıq biz,*
*Mərhəmət diləkli, işıq arzulu.*
*Taleyi gec gülən ağaclarıq biz,*
*Dili köklərində, əli ruzulu,*
*Dənizlər, dəryalar çağlasın qanda,*
*İlhamı dağa vur, daşa vur görək,*
*Hər günü şeirlə başa vur görək-*
*Kim solar, kim qalar bu gülüstanda*
*Özünə rəhm elə, şeirdən getmə!*
*Qardaş! Bilə-bilə şeirdən getmə!!*

O zaman mən Səyavuş Sərxanlıdan soruşdum ki, o şair dostun şeirə qayıtdımı, dedi qayıtdı, indi sayılıb-seçilən şairlərimizdən biridir. Anar Seyidağa da iyirmi ildən sonra şeirə qayıtdı. Demək, içindəki o poeziya odu sönməyibmiş, korun-korun tüstülənirmiş. Və Anar bu il "De ki sevirəm səni" üçüncü şeirlər kitabını çap etdirib.

Bəlkə də Anar Seyidağa və onun şair taleyi ilə bağlı bu izahata ehtiyac yox idi, amma siz onu yaxşı tanıyasınız deyə şərhə yol verdim.

İndi isə onuün şeirləri barədə. Öncə Əlibala Hacızadənin rəyindən bir neçə cümlə: "Sənin şeirlərini məhəbbət nəğməsi kimi oxudum, sevindim, kövrəldim və xatirələrimi, hisslərimi oyatdığın üçün sənə "sağ ol" deyirəm. Şair sözü böyük sözdü. Onu hər kəsin adının qabağına yazmırlar və hər kəs də bu adı şərafətlə qoruyub axıracan saxlamır, saxlaya bilmir".

Anar Seyidağağının şeirlərpinin demək olavr ki, müəyyənb bir qismi sevgidən danışır. Mən bunu çox təbii sayıram. Amma öncə Anarın sevginin mənə və mahiyyəti barədə dediyi misralara diqqət yetirirəm:

*Sevgidən yaranıb bizim dünyamız,*
*Günahdan yaranıb bizim dünyamız.*
*Sevmək günah deyil, günahdı bəlkə,*
*Sevmək adamları sınamaq üçün*
*Allavın əlində silahdı bəlkə.*
*Bəlkə yoxdu sevgi,*
*bəlkə də olub,*
*Mən bəlkə deyirəm, belədir elə.*
*Dünyanı sevənlər bu günə qoyub,*
*Dünyanı sevənlər yaşadır hələ.*

Bu şeirdə Anar Seyidağanın tərəddüd içində "sevgi varpmı, yoxmu" sualı qarşısında nigarançılığını duydum, amma şeirin sonunda -"dünyanı sevənlər yaşadır hələ"- bu tərəddüdlərə son qoyması onu bir "sevgi adamı"-klassik dillə desəm-Aşiq kimi səciyyələndirir. Bu



Aşiq həm xəyallar içində yaşayan, həm də reallıqlar içində çırpınan bir ürək sahibidir. Hər bir insanı başqalarından seçib ayıran fərqli xüsusiyyətləri olur, eləcə də onun sevgisi də fərdidir. Amma bütün sevənləri, xüsusilə, Aşiqləri bir çevrədə birləşdirən xətlər var. O da sevgi içində yaşamaqdı, o sevginin sənə verdiyi əzablarıa öyrəşməkdi. Dahi sevgi şairi Füzulidə olduğu kimi. Füzuli deyirdi ki: "Ey Füzuli, çıxdı can, çıxman təriqi-eşqdən, Rəhgüzari -əhli-eşq üzrə qılın mədfən mana!". Yəni eşq yolunda aşiqin canı çıxdı, amma özü eşq yolundan çıxmır və həmkarlarından təmənna eyləyir ki, onu aşiqlər yolunun üstündə dəfn eləsinlər. Maddi ölümdən sonra da sevgidən əl çəkmək olmaz. Mən müasir dövrdə yazılan sevgi şeirlərində də Füzulidən "bir dad, bir duz" axtarıram və Anar Seyidağanın heirlərində də həmçinin. Anarın "Qayıt" adlı şeirində həmin o "dadı, duzu" gördüm:

*Qayıt ürəyimə, qayıda bilsən,*
*Ürəyim sahilsiz dənizdir axı*
*Hər dəfə kükrəyib daşanda "dəniz"*
*Sular gözlərimdən dənizə axır.*
*Qayıt ürəyimə, qayıda bilsən,*
*Orda bir sevgi var, sənə boylanır.*
*Qayıt ürəyimə, qayıt yenə sən*
*Axı ürəyimdə bir ocaq yanır.*
*Şimşəklər zəhmli baxışlarındı,*
*Hər gecə qəlbimdə tufan qoparır.*
*Bu sevgi taleyin naxışlarıdı-*
*Bilmirəm heç məni havra aparır.*
*Qayıt bahar kimi xəzan günümdə,*
*Qayıt, ürəyimdən çəkilsin duman.*
*Soyuq baxışların soyuqluğunda*
*Qönçə arzularım üşüyür yaman.*

"Qayıt" şeiri mənə Əli Kərimin eyni adlı şeirini xatırladtı və çox istərəm ki, Anar Seyidağa da Əli Kərimin "Qayıt, səhmana sal bu kainatı" kimi tayı-bərabəri olmayan misralar yaratsın. Amma Anarın "Qayıt" şeiri də sevgi yaşantılarını əks etdirən gözəl bir şeirdir.

Anar Seyidağanın sevgi şeirldərinin lirimk qəhrəmanını heç də Füzuli dövründəki Aşiqlətən tutmaq istəmirəm, Anarın Aşiq obrazı bu günün reallıqlarını özündə əks etdirən bir gəncdir. Təbii ki, öncə qeyd etdiyim kimi, klassik və müasir Aşiqlər arasında bir əzabkeşlik bənzərlikləri var. Bir bənzərlik:

*Sevgimiz dillərə bir məsəl olsun,*
*İnanma, sevgimdə bir xəzəl olsuün.*
*Dünya başdan-başa qoy gözəl olsun,*
*Mən səni sevməyə bilmərəm axı!*

İnanıram ki, Anar Seyidağanın sevən Aşiqi də həmişə o böyük sevgi yolunu tərk etməsin.Yansın-yaxılsın, əzab çəksin, amma yoluna davam etsin!

Anar Seyidağanın şeirləri içində düşündürücü nümunələr az deyil. Şair ki, onu maraqlandıran, şübhələrdən, tərəddüdlərdən, gümanlardan qurtulub düşüncə arealına üz tutur, deməli, məhdud çərçivədən xilas olur. Ölüm haqqında yazır ("Bir az belə qəribəsən, bir az mənə tanış ölüm"), dünyaya üz tutub deyir ki: "Bir ömürlük qonağınam, Dünya, mənlə işin yoxdu", hətta bir şeirində dünya", şeirlərinin bir neçəsində "Allah, bir yol göstər" deyir, amma sevgisində sabitdir:

*Milyon il sonra da yaşasam əgər,*
*Milyon il sonra da sevərəm səni.*

Əlbəttə, Anar Seyidağa da bizimlə bir dövrdə yaşayır və həyatın hər üzünü görür. Və gözəllikləri vəsf etdiyi kimi, reallıfqda baş verən naqisliklərə-böhtana, şərə, pisliyə, rəzalətə dözə bilmir. "Bir də doğulsaydım hakim olardım, sözlə sağalmayanları iynə-dərmanla sağaldardıfm barı" və s. Ancaq bu pislikləri dəf etmək üçün təzədən doğulmaq lazım deyil. Özünü ölülüyə də vurmaq lazım deyil. Yalnız şeirin gur atəşi ilə bu nakəslərə od yağdırmaq..

Anar Seyidağanın bir şeirini çox bəyəndim. "Salam" şeirini. Və çox istərdim bundan sonra yazacavğı şeirlərdə Cənub diyarının gözəl, bənzərsiz təbiəti öz poetik ifadəsini tapsın:

*Salam, Dəmirağacı!*
*Sən çox qədimsən axı*
*Bizim əcdadlar qədər.*
*Söylə onda, bəs necə*
*Düşmən qaçıb birtəhər.*
*Qılınc altından keçib-*
*Ya da - əyilib yenə.*
*O gün-bu gün bəlkə də,*
*Qisas qalıbdır mənə.*
*Sağ ol, Çinar ağacı,*
*Sağ ol, Palıd ağacı,*
*Sağ ol, Dəmirağacı*

**Uğurlar arzulayıram Anar Seyidağaya!**